

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 179 (23.341)

*25 sentyabr 2019-cu il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosun etimadnaməsini qəbul edib.

Səfirlə söhbət edən Prezident İlham Əliyev deyib: “Bilirsiniz ki, Azərbaycan hər zaman sizin ölkənizi dünyanın ən mühüm tərəfdaş ölkələrindən biri kimi qəbul edir. Mənim Parisə çoxsaylı səfərlərim və Prezident Şirak, Prezident Sarkozi və Prezident Olland ilə, həmçinin ötən il Prezident Makron ilə olan görüşlərimin hamısı və digər yüksək səviyyəli rəsmilərlə görüşlərim əməkdaşlığımızın inkişafında çox böyük rol oynamışdır”.

Səfir Zakari Qros deyib ki, bizim möhkəm ikitərəfli münasibətlərimiz mövcuddur və bu məsələdə Sizin şəxsi töhfəniz bizim üçün çox önəmlidir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Xorvatiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Branko Zebiçin etimadnaməsini qəbul edib.

* * *

Dövlətimizin başçısı həmin gün Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikasın etimadnaməsini qəbul edib.



## Araz-Türk Cümhuriyyətinin fəaliyyətinin tədqiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Çoxəsrlik dövlətçilik ənənələri olan Naxçıvan milli istiqlaliyyət tariximizdə xüsusi yer tutur. XX əsrin əvvəllərində Naxçıvanın ağır tarixi-siyasi şəraitdə erməni təcavüzü və soyqırım siyasəti ilə üz-üzə qalması, burada güclü dövlət idarəçiliyi və nizami hərbi qüvvələrin təşkilinə ciddi ehtiyac yaratmışdır. 1918-ci ildə tarixi zərurətdən yaranan Araz-Türk Cümhuriyyətinin uğurlu hərbi və diplomatik fəaliyyəti Naxçıvanı erməni təcavüzündən qorumuş və bununla da dövlət müstəqilliyi uğrunda mübarizədə Azərbaycanın ərazi bütövlüyü təmin olunmuşdur.

Araz-Türk Cümhuriyyətinin müstəqillik tariximizdəki müstəsna xidmətlərini və siyasi əhəmiyyətini nəzərə alıb, fəaliyyətinin elmi əsaslarla tədqiq edilməsi və öyrənilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondu Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birgə “Araz-Türk Cümhuriyyəti” elmi-tədqiqat qrupu yaratsın.

2. Tədqiqatın nəticələri əsasında elmi nəşr hazırlansın.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 sentyabr 2019-cu il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Sentyabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşmüşdür.

Ali Məclisin Sədri səfiri salamlamış, Azərbaycan-Gürcüstan əlaqələrinin müxtəlif istiqamətlərdə inkişaf etdiyini bildirmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ikitərəfli əlaqələrdəki rolundan bəhs edən Ali Məclisin Sədri bunu səmərəli əməkdaşlığın nəticəsi kimi dəyərləndirmişdir.

Zurab Pataradze göstərilən diqqətə görə minnətdarlıq etmiş, Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafından danışmışdır. İkitərəfli münasibətlərin dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını ifadə edən qonaq Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiklərini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraqdoğuran məsələlər müzakirə edilmiş, xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## 2019-cu ilin yanvar-avqust aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2019-cu ilin yanvar-avqust aylarında 1 milyard 803 milyon 670 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Bu, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 3945 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 742 milyon 932 min 800 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2019-cu ilin yanvar-avqust aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 654 milyon 443 min 600 manat vəsait yönəldilmişdir. Bu da bir il önceki göstəricidən 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 631 milyon 634 min 500 manatı və ya 96,5 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

Bəhs olunan dövrdə 309 milyon 144 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 14518,9 ton, süd istehsalı 68143,1 ton olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,9 faiz, süd istehsalı isə 1,5 faiz artmışdır.

* * *

2019-cu ilin yanvar-avqust aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 35 milyon 522 min manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 3,2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 28 milyon 898 min 100 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 2,1 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2019-cu ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə



77 milyon 641 min 400 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il önceki göstəricidən 2,2 dəfə çoxdur. Verilmiş kreditlərin 9 milyon 781 min 800 manatı və yaxud 12,6 faizi qısamüddətli, 67 milyon 859 min 600 manatı və yaxud 87,4 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 sentyabr 2019-cu il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 82781-ə çatmışdır ki, bunun da 73167-si və ya 88,4 faizi aktiv hesablardır. 2019-cu ilin yanvar-avqust aylarında açılmış 18163 bank hesabının 17995-i aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 sentyabr 2019-cu il tarixə 1276-ya çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2019-cu ilin yanvar-avqust aylarında 325 milyon 495 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 285 milyon 764 min 900 ABŞ dolları təşkil etmiş, 246 milyon 34 min 800 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2019-cu ilin yanvar-iyul aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 454,5 manat təşkil etmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,7 faiz çoxdur.

* * *

1 avqust 2019-cu il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3359 nəfər artaraq 457 min 972 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

***Milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Çünki yeni istehsal müəssisələri yerli məhsul istehsalını stimullaşdırmaqla bərabər, daxili bazarın idxal məhsullardan qorunması, məşğulluğun təmin olunması kimi məsələlərə də öz müsbət təsirini göstərir. Bu mənada, yeni yaranan müəssisələrə dövlət tərəfindən hərtərəfli dəstək verilir, onların fəaliyyətlərinin təmin olunması üçün lazımi şərait yaradılır. Belə müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Azelektrod" Məhdud Məsuliyyətli Cəmiyyətində yeni yaradılmış boya istehsalı sahəsidir.***

*İstehsal müəssisələri*

## Yeni boya istehsalı sahəsi fəaliyyətə başlayıb



Müəssisənin rəhbəri Zamin Abbasov bizimlə söhbətində bildirdi ki, muxtar respublikanın inşaat sektorunda istifadə edilən bir sıra məhsulların istehsalı ilə məşğul olan "Azelektrod" Məhdud Məsuliyyətli Cəmiyyəti 2017-ci ildə fəaliyyətə başlayıb. Göstərilən dövlət dəstəyinin nəticəsində yaranan müəssisədə 2017-ci ildə "Azelektrod" əmtəə nişanı ilə polad və dəmir qaynağı üçün 2,5, 3,2 və 4 millimetr qalınlıqda elektrodların qablaşdırılması həyata keçirilir. 2018-ci ildən isə müəssisədə "Az-NaxKim" əmtəə nişanı ilə qeydiyyatdan keçmiş kafel, metlax, məsaməli beton-blok, mərmər və qranit yapışdırıcıları (ağ və boz rənglərdə), kimyəvi quru qarışıqlar, hazır suvaq qarışığı, beton səth sərtləşdirici, özüyayılan döşəmə qarışığı, təmir suvağı, aralıq doldurma qarışığı (bütün rənglərdə) kimi tikinti işlərində çox zəruri olan məhsullar istehsal edilir. Təmir suvağı üçün qarışıq 1, 5 və 20, sement əsaslı hazır suvaqlar 40, digərləri isə 25 kiloqramlıq qablaşdırma ilə satışa çıxarılır. Öyrəndik ki, buradakı avadanlıqlar Türkiyə Respublikasından alınıb gətirilib və istehsal üçün istifadə olunan xammalın – əhəng, kalsid, gips, sement və qumun yerli məhsullar olması keyfiyyət amilinə öz təsirini göstərir. Məhsulların istehsalı üçün avadanlıqların gücü əvvəllər saatda 5 ton idisə, indi 9 tona çatdırılıb.

Zamin Abbasov qeyd etdi ki, hazırda 1360 kvadratmetr sahədə fəaliyyət göstərən müəssisədə bu yaxınlarda yeni boya istehsalı bölümü də yaradılıb. Bunun üçün müxtəlif bazar araşdırmaları aparılıb, boya istehsalında tətbiq edilən innovativ texnologiyalarla bağlı təcrübələr mənimsənilib. Qısa müddətdə avadanlıqlar alınıb gətirilərək müəssisədə lazımi şərait yaradılıb.

Müsahibimiz onu da bildirdi ki, keyfiyyətli boya üçün istehsal olunan məhsulun və ya xammalın laborator analizi mühüm şərtdir. Biz də bu amili əsas tutaraq ilk olaraq müəssisədə yeni laboratoriya yaratdıq. Laboratoriyada qabaqcıl ölkələrin cihaz və avadanlıqlarını quraşdırdıq. Burada istehsal olunan məhsulların keyfiyyətini yoxlamaq üçün müxtəlif testlər aparırıq. Bu testlər zamanı istehsal ediləcək boyaların qatı və ya duruluğu, səthi örtmə məsrəfi, temperatura və suya davamlılığı, parlaqlığı, suyun codluğu, donma keyfiyyəti və digər amillər müəyyən olunur. Artıq müəssisəmizdə izolyasiya mayeləri, tavan və plastik boyaları, həmçinin fasad üçün silikonlu, akrilik, tekstur, yeni qumlu boyaların istehsalına başlamışıq və bu yaxınlarda məhsullarımızı bazara çıxarmışıq. Məqsədimiz keyfiyyətli boya ilə tanınmaq, istehlakçıların rəğbətini qazanmaqdır. Bunun üçün çox iddialıyıq. Bu gün istehlakçılara "Az-NaxKim" əmtəə nişanı ilə 3, 5, 10, 20 kiloqramlıq qablarda təqdim etdiyimiz boyalar sərfəli qiymət və yüksək qatılıq sayəsində digərlərindən ən azı iki dəfə qənaətcildir. Ümid edirik ki, çox qısa müddətdə hər kəs bu yerli məhsullarımızın keyfiyyətini görəcəkdir.

Zamin Abbasov vurğuladı ki, hazırda müəssisəmiz mürəkkəb bir prosesdən keçmə mərhələsindədir. Çünki çoxçeşidli bazara yeni məhsul çıxarmaq, bu məhsulun istehlakçılar tərəfindən qəbul olunaraq rəğbət qazanması, həqiqətən də, sahibkar üçün bir sınaqdır. Ancaq biz inanırıq ki, bu sınağın öhdəsindən layiqincə gələcəyik. Digər tərəfdən, kadr məsələləri bu gün istənilən sahə üçün öndə gəlir. Hazırda müəssisəmizdə istehsal olunan məhsulların laborator analizlərini aparan, eyni zamanda keyfiyyətli məhsul istehsal etməyin yolunu yaxşı mənimsəyən işçilərimiz var. Zamanla belə kadrların sayı daha da artacaq. Çünki müəssisəmizdə işçi personalının hamısı gənclərdir və onların da öyrənməyə, daha çox təcrübə qazanmağa geniş imkanları var.

Müəssisə rəhbəri onu da əlavə etdi ki, bu gün muxtar respublikamızda sahibkarlığın inkişafı üçün lazımi şərait yaradılıb. Aidiyyəti dövlət qurumları tərəfindən hərtərəfli köməklik göstərilir. Dövlət dəstəyi varsa, demək, onda sahibkarın iş görməsi, fəaliyyətini genişləndirməsi üçün o, böyük imkanlara malikdir. Buna görə də bizim bir məqsədimiz var ki, keyfiyyətli məhsul istehsal edək, milli iqtisadiyyatımızın inkişafına öz töhfəmizi verək, ən əsası isə Naxçıvanımızın nüfuzunu ölkəmizdən kənarda da layiqincə tanıdaq.

Bu yazıda muxtar respublikamızda sahibkarlığın inkişafı üçün yaradılmış şəraitdən layiqincə bəhrələnməyə çalışan yeni bir istehsal müəssisəsinin fəaliyyəti ilə tanış olduq. Ümid edirik ki, belə müəssisələr tezliklə daxili bazarı yerli məhsullarla təmin etməklə yanaşı, Naxçıvanın ixrac potensialının artırılmasına da öz töhfələrini verməyə çalışacaqlar.

**Səbuhi HƏSƏNOV**

## Bir tondan çox alma hərbi hissəyə təhvil verilib



Muxtar respublika əhalisinin iməciliklər yolu ilə saldıqları meyvə bağlarından və ailə təsərrüfatlarının sahələrindən toplanan məhsulun hərbi hissələrə təhvil verilməsi ənənə halını alıb. Şahbuz rayonunun da idarə, müəssisə və təşkilatlarının kollektivləri bu xeyirxah addımı heç vaxt yaddan çıxarmır. Rayon ərazisində bu günə kimi iməciliklər yolu ilə 200 hektardan artıq yaşıllıq sahələri salınıb ki, bunların da əksəriyyəti meyvə bağlarıdır. Artıq bir neçə ildir ki, meyvə bağlarından bol məhsul toplanılır. Həmin məhsulların əksəriyyəti hərbi hissəyə təhvil verilir.

Bu il də mövsüm ərzində toplanan 8 tondan artıq meyvə rayon ərazisindəki hərbi hissəyə göndərilib. Həmin tədbirlərin davamı olaraq bu günlərdə idarə, müəssisə və təşkilat kollektivlərinin iməcilik yolu ilə əkdikləri meyvə bağlarından toplanan 1 tondan çox alma hərbi hissəyə təhvil verilib. Bu, xalq-ordu birliyinin ifadəsi, ordumuza göstərilən diqqət və qayğının bariz nümunəsidir. Təbii ki, hərbi hissələrə sovqat aparılması şəxsi heyət tərəfindən də böyük ruh yüksəkliyi ilə qarşılanır. Ordu inanır ki, onun arxasında bütün Azərbaycan xalqı dayanır. Bu birlik ordumuzu daha da yenilməz, qüdrətli edir.

Məhsulun hərbi hissəyə təhvil verilməsi ilə bağlı keçirilən tədbirdə Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı Cəlal Paşayev və hərbi hissənin zabiti Cəbrayıl Nəbiyev çıxış edərək Azərbaycan Ordusunun qüdrətindən və orduya göstərilən dövlət qayğısından danışıblar.

Hərbi hissənin şəxsi heyəti göstərilən diqqətə görə minnətdarlıq edib.

## Ailə təsərrüfatı məhsullarının sərgi-satışı təşkil olunub



2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması diyarımızda müxtəlif təsərrüfat sahələrində çalışanlar üçün yeni imkanlar açıb. Bu gün Şahbuz rayonunda da müxtəlif sahələr üzrə ailə təsərrüfatları fəaliyyət göstərir. Təsərrüfat sahiblərinə növbəti qayğının nümunəsi olaraq rayon mərkəzindəki Heydər Əliyev prospektində ailə təsərrüfatı məhsullarının sərgi-satışı təşkil olunub.

Tədbirin aparıcıları bildiriblər ki, Şahbuzda ilbəil kənd təsərrüfatı məhsullarının istehsalında ailə təsərrüfatlarının böyük rolu var. Şahbuzun ailə təsərrüfatı sahibləri həm rayonun, həm də muxtar respublika bazarlarının yerli məhsullarla təmin olunmasına töhfələrini verirlər.

Sərgi-satışa rayonun kəndlərindən 80-ə yaxın ailə təsərrüfatı tərəfindən 11 növdə, 79 adda 2300 qablaşdırılmış məhsul çıxarılmışdı. Bölgə qaymağı, xaması, müxtəlif növ mürəbbə və şirniyyatlar, pendir, qatıq, cəviz, meyvə araqları, eləcə də turşular, kompotlar, dərman bitkiləri, meyvə quruları alıcılara təqdim olunub.

İki gün davam edən sərgi-satışda "Ən yaxşı ailə təsərrüfatı" nominasiyası üzrə qaliblər də müəyyənləşdirilib. Qaliblər Şahbuz Rayon İcra Hakimiyyətinin diplomları ilə təltif olunublar.

Ailə təsərrüfatı məhsullarının sərgi-satışı alıcılar tərəfindən razılıqla qarşılanıb, satışa çıxarılan məhsullar istehlakçılar tərəfindən münasib qiymətə alınıb.

Qeyd edək ki, tədbirdə Şahbuz Rayon Mədəniyyət Evinin "Batabat" instrumental ansamblının və rayon uşaq musiqi məktəbləri kollektivlərinin ifasında musiqi nömrələri səsləndirilib.

**Hicran ƏLİYEVA**

*"Ailə təsərrüfatları ili" – 2019*

## Zəhmətkeş

*Aqrar sahənin dinamik inkişaf etdiyi Babək rayonunda müxtəlif profilli ailə təsərrüfatları mövcuddur. Cari ilin "Ailə təsərrüfatları ili" elan olunması isə bölgədə yeni belə təsərrüfatların yaradılmasına, mövcud olanların isə fəaliyyətlərini genişləndirmələrinə imkan verir. Nehrəm kəndindən olan Elşən Əliyev də nümunəvi ailə təsərrüfatçılarından biri kimi tanınır. O, bu işə başladığı ilk illərdə qarpız əkinini həyata keçirib. Cari təsərrüfat ilində isə 3 hektarlıq qarpız əkini sahəsindən 45 tona yaxın məhsul tədarük edib. Bu rəqəm Elşən Əliyevin təsərrüfatçılıq təcrübəsində həlalik rekord həddir.*



Zeynəddin çiyələyi, Aşağı Buzqov və Gərməçataq balı və cəvizi, Sirab kəndi mineral süfrə suyu ilə tanındığı kimi, Nehrəm də özünün bostan məhsulları, xüsusilə qarpızı ilə məşhurdur. Qarpız Nehrəmin brendinə çevrilib, – desək, yəqin ki, yanılmarıq. Doğrudur, son illər Babək rayonunun Hacıvar, Şəkərabad, Babək qəsəbə və Şıxmahmud kəndlərində də qarpız əkini aparılır. Amma etiraf etmək lazımdır ki, bostan məhsullarının əkini sahəsində ən böyük təcrübə nehrəmlilərə məxsusdur. Buna görə də onlar iyun ayından etibarən sentyabrın sonuna kimi Naxçıvan-Culfa magistral yolunun kənarında – torpaq mülkiyyətçiləri üçün ayrılmış yerdə bostan məhsullarının satışını həyata keçirirlər. Hətta onların arasında elə təsərrüfatçılar var ki, mövsümdə 50-60 ton məhsul istehsal edə bilirlər. Elə yazımızın qəhrəmanı Elşən Əliyev kimi. İlin-günün bu vaxtında Elşən kimi torpaq mülkiyyətçilərini bir yerdə tapmaq mümkünsüzdür. Ona görə ki, təsərrüfat ilinin sonlarına yaxınlaşırıq və iş-güc, belə desək, başdan aşır. Əvvəla, payız ayları qarpız turşusunun və mürəbbəsinin hazırlanması üçün ideal vaxtdır. Digər bir tərəfdən, bostanda məhsulun "əl-ayağı" yığışır və artıq Elşən də qalan qovun-qarpızı toplayıb muxtar respublikanın başqa rayonlarında da satışa çıxarır.

Gənc ailə təsərrüfatçısı deyir ki, erkən yazda sahələrə çıxır, daha çox məhsuldar ərazi kimi tanınan Pircüvar düzündə qovun-qarpızın əkininə başlayırıq. Bir məsələni mütləq nəzərə almaq lazımdır ki, qarpızı hara gəldi, əkmək olmaz. Mütəxəssislərlə də məsləhətləşib fikirlərini öyrənmişik ki, qarpızı vaxtilə taxıl əkilən yerə əkmək daha münasibdir. Yaz aylarında toxum torpağa düşən kimi üzərinə polietilen örtük çəkirik və qarpız yetişənə qədər 2-3 dəfə suvarırıq. Əkin sahələrimiz Heydər Əliyev Su Anbarının sol sahil kanalı ilə qidalandığı üçün suvarmada heç bir çətinliyimiz yoxdur. Bu il havalar əlverişli keçdiyindən anbarda kifayət qədər su ehtiyatı yaradılıb.

Sahibkar deyir ki, məhsulun yığılması və satışa çıxarılması zamanı təsərrüfatda bir neçə nəfər işlə təmin edilir. Bu il də təsərrüfat üçün uğurlu olub:

– Mən özüm 3 hektara yaxın bostan məhsulu əkmişdim və orta hesabla 45 tona yaxın məhsul yığa bildim. Ümumiyyətlə, hər il bu sahəyə olan maraq artır. Hətta deyərdim ki, Nehrəmdə heç vaxt builki qədər bostan məhsulları əkilməmişdi. Buna görə də qarpızın kiloqramı iyul ayından sonra 10-15 qəpiyə düşdü.

"Yüksək məhsuldarlığa nail olmağınızın səbəbini nədə görürsünüz?" – sualına o, belə cavab verir: "Əvvəla, bir qarış torpağımızı belə, boş qoymamışıq. Nehrəm kəndinin torpaqları qumsal olduğuna görə bostan məhsullarının əkini üçün çox əlverişli və münbitdir. Məhsul yetişənə kimi bütün aqrotexniki qaydalara əməl etmişik. Necə deyərlər, pərvanə kimi torpağın başına dolanmışıq. Zamanında suvarmışıq, ziyanvericilərə qarşı dərmanlamışıq. Bu işdə təsərrüfatçılıq təcrübəsi də öz sözünü deyir. Gözümüzü açıb görmüşük ki, kənddə ata-babalarımız bostan məhsullarını xüsusi qaydalarla əkib-becərirlər. Bu ənənə indi də yaşadılır. Yaz aylarından etibarən ailələrdə əli iş tuta bilən hər kəs sahələrə axışır. Bostanda hərənin öz işi var. Bu vasitə ilə oğul-uşağa da zəhmət çəkməyin, torpaqdan ikiəlli yapışmağın, torpağın kəndli üçün ən yaxşı iş yeri olduğunun vacibliyini aşılaya bilmişik. Bu, həyatın bütün sahələrində belədir. Zəhmət çəkmədən uğur əldə etmək olmaz. Əgər bu gün hər hansı bir təsərrüfat sahibi qarpızdan bir mövsümdə orta hesabla 6-7 min manat gəlir götürürsə, bu işin qayəsini zəhmət təşkil edir. Gecəsini gündüzünə qatan, torpağın qədir-qiymətini bilən hər kəs ondan yaxşı gəlir əldə edə bilər. Bunun hər il şahidi oluram. Nehrəmdə elə torpaq mülkiyyətçiləri var ki, qarpızdan əldə etdiyi gəlir hesabına yeni avtomobil alıb, yurd salıb. Yaxşı yaşayış, gün-güzəran qıfıldırsa, zəhmət onun açarıdır".

Müsahibim deyir ki, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin aşağı faiz dərəcəsi ilə ailə təsərrüfatçılarına verdiyi kreditlərdən yararlanmaq fikrindəyəm. Aldığım kredit hesabına təsərrüfatda qarpız turşusunun və mürəbbəsinin qablaşdırılmasını həyata keçirəcəyik və payız aylarında Naxçıvanda təşkil olunan ənənəvi "Ailə təsərrüfatları məhsulları" festivalına çıxaracağam. Düşünürəm ki, məhsulun qablaşdırılması həm də onun istehlakçıya daha yaxşı təqdim olunması deməkdir.

Bu gün Nehrəm kimi böyük kənddə Elşənlə yanaşı, onlarla torpaq mülkiyyətçisi vardır. Kimi taxıl, kimi bostan məhsulları əkib-becərir, kimi də heyvandarlığı inkişaf etdirir. Bir sözlə, yaradılan şəraitin nəticəsidir ki, indi bu böyük yaşayış məntəqəsində neçə-neçə ailə təsərrüfatı, sahibkarlıq subyektləri mövcuddur.

**Muxtar RZAZADƏ**
***"Şərqin səhəri " qəzetinin redaktoru***

## Zurab Pataradze: "İkitərəfli əlaqələrimizin inkişafı üçün geniş imkanlar vardır"





Gürcüstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Biznes Mərkəzinə gələn səfirə məlumat verilib ki, mərkəzin sərgi salonunda 96 müəssisənin 192 növdə və 1258 çeşiddə məhsulu, 120 ailə təsərrüfatında istehsal edilən məhsullar, ayrı-ayrı sənətkarlar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur.

"Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq zamanı bildirilib ki, vafli istehsalı ilə fəaliyyətə başlayan müəssisədə bu gün peçenye istehsalı sahəsi də fəaliyyət göstərir. Müəssisədə istehsal olunan məhsulların xammal ehtiyatı, əsasən, daxili imkanlar hesabına ödənilir. Bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməməsinə öz müsbət təsirini göstərir. Müəssisənin gündəlik istehsal gücü 14 tondur. Burada Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlarla təmin edilmiş laboratoriya fəaliyyət göstərir.

Diplomat "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" MMC-də də olub, bu müəssisənin istehsal gücü, burada istehsal edilən məhsulların çeşidi haqqında ətraflı məlumat öyrənib.

"Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq da qonağın marağına səbəb olub. Diqqətə çatdırılıb ki, müəssisənin istilik panelləri sahəsinin gücü ayda 9500 metr panel və 8000 metr alüminium radiator, dam örtükləri sahəsinin gücü isə ayda 250 min kvadratmetr metal dam örtüyüdür. Standartlara uyğun istehsal olunan məhsulların 20 faizi yerli tələbatı tam ödəyir, 80 faizi isə ölkəmizin digər bölgələrinə və xarici bazarlarda satışa çıxarılır. Plastik boru, profil və aksesuarlar istehsalı müəssisəsində bildirilib ki, burada tam avtomatlaşdırılmış avadanlıqlar quraşdırılıb. İstehsal gücü ayda 1500 ton olan müəssisədə 7 növdə və 160 çeşiddə məhsul istehsal olunur.

Naxçıvan Sement Zavodunda olan səfirə məlumat verilib ki, müəssisənin gündəlik istehsal gücü 800 ton klinkerə və 1300 ton sementə çatır. Zavodda "quru üsul" texnologiyasından istifadə edilir. Sement istehsalında bu müasir texnologiyanın üstünlüyü ondan ibarətdir ki, məhsulun yüksək keyfiyyəti təmin olunur, nəm üsul ilə müqayisədə xammalın üyüdülməsində suya ehtiyac qalmır və yanacağa qənaət edilir. Müasir texnologiyalara malik olan Naxçıvan Sement Zavodu "CE" keyfiyyət nişanına layiq görülüb.



Gürcüstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze "Şərq qapısı" qəzetinə müsahibəsində səfərinin məqsədi barədə danışıb:

– Azərbaycan bizim strateji partnyorumuzdur, iqtisadi, humanitar, turizm sahələrində əlaqələrimiz yüksək səviyyədədir. Dostluq münasibətlərimizin fonunda regional əlaqələrimiz də inkişaf edir. Bu əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının özünəməxsus yeri var. İl yarım bundan əvvəl Naxçıvanda olmuşdum və bu gün gördüm ki, qısa zamanda müsbət mənada xeyli dəyişikliklər baş verib, yeni müəssisələr açılıb, infrastruktur yenilənib, çoxfunksiyalı "Saat Meydanı" yaradılıb.

Qısa səfərim çərçivəsində qabaqcıl sənaye müəssisələri ilə tanış oldum, ikitərəfli əlaqələrimizin inkişafı üçün geniş imkanların mövcudluğunu bir daha gördüm. Tezliklə Azərbaycan və Gürcüstan hökumətlərarası komissiyanın iclası keçiriləcək, eləcə də biznes-forum olacaq. Bu çərçivədə gürcü sahibkarların Naxçıvan Muxtar Respublikasını da ziyarət etməsi nəzərdə tutulur. Bunun ikitərəfli regional əməkdaşlığa müsbət təsir göstərəcəyini düşünürəm. Həmçinin qeyd etmək istəyirəm ki, regionlarımız arasında turizm əlaqələrinin də inkişafı üçün potensial mövcuddur. Səfər zamanı o da bizə məlum oldu ki, burada dağ-xizək və müalicə turizm sahələri də inkişaf edir. Yeri gəlmişkən, gürcü uşaqların Duzdağ Fizioterapiya Mərkəzində müalicə almasına göstərdiyi köməyə görə də muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

Gələcəkdə qarşılıqlı olaraq turizm potensialının tanıdılması üçün press-turlar təşkil etməyi düşünürük, həmçinin iqtisadi sahədə də əməkdaşlıq üçün müəyyən qərarlar qəbul etmişik. Gürcüstanın müxtəlif şəhərlərində Naxçıvan Muxtar Respublikasının ticarət evlərinin açılmasını razılaşdırmışıq, əlaqələrin inkişafı üçün əlimizdən gələni etməyə çalışacağıq. Ümidvaram ki, birgə səylərimiz öz müsbət nəticələrini verəcək.

**Nail ƏSGƏROV**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət musiqi təhsili müəssisələrinə işə qəbul ilə əlaqədar vakant

## Müsahibə mərhələsi keçirilib

vəzifələrin tutulması üçün 3 iyul 2019-cu il tarixdə elan olunmuş müsabiqənin test imtahanları keçirilib. Müsabiqəyə çıxarılmış 285 vakant vəzifənin tutulması üçün 82 nəfər tərəfindən sənəd təqdim olunub. İmtahanlarda 80 namizəd iştirak edib, onlardan 20-si keçid balını toplayıb.

Naxçıvan Musiqi Kollecində işə qəbul üçün ali təhsil müəssisələrini, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə işə qəbul üçün ali və ya orta ixtisas təhsili müəssisələrini bitirmiş şəxslər iştirak ediblər.

Keçid balını toplayaraq uğur qazanmış namizədlərin müsahibə mərhələsi 23 sentyabr 2019-cu il tarixdə keçirilib. Qanunvericiliyə əsasən müsahibənin keçirilməsi üçün Mədəniyyət Nazirliyindən 1, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan 1, muxtar respublikada fəaliyyət göstərən təhsil müəssisələrindən müstəqil ekspert qismində 3 nəfər olmaqla, 5 üzvdən ibarət müsahibə komissiyası yaradılıb. Naxçıvan Musiqi Kollecində keçirilən müsahibə zamanı namizədlərin praktik hazırlığı, peşəkarlıq və ifaçılıq qabiliyyətləri yoxlanılıb.

Müsahibə mərhələsində 18 nəfər iştirak edib, onlardan 16-sı müvafiq keçid balını toplayaraq uğur qazanıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında dövlət musiqi təhsili müəssisələrinə işə qəbul ilk dəfə olaraq müsabiqə yolu ilə həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Ukraynanın tanınmış ürək cərrahı İlya Emetsin başçılıq etdiyi heyət Naxçıvanda müayinələr aparıb



*Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə Ukrayna Səhiyyə Nazirliyinin Uşaq Kardiologiyası və Ürək Cərrahiyyəsi Elmi və Praktik Tibbi Mərkəzinin direktoru, Ukraynanın Əməkdar həkimi, professor İlya Emetsin başçılıq etdiyi heyət sentyabrın 23-də Naxçıvanda olub.*

Səfər çərçivəsində naxçıvanlı kardioloq, cərrah və tibb mütəxəssisləri ilə Naxçıvan Muxtar Respublikası Kardiologiya Mərkəzində elmi-praktik görüş keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək Ukrayna ilə qarşılıqlı əlaqələrin hazırda bir sıra istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində uğurla inkişaf etdiyini bildirib. Nazir deyib ki, muxtar respublikada bu sahədə savadlı mütəxəssislərin yetişdirilməsi, ürək xəstəliklərindən əziyyət çəkən insanların başqa ölkələrə üz tutmadan öz vətənində müalicə olunmasında son illər uğurlu nəticələr əldə edilib. Belə ki, muxtar respublikada bu sahədə fəaliyyət göstərən həkimlər bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi üçün mütəmadi olaraq paytaxt Bakı şəhərində və xarici ölkələrdə təcrübə keçirlər. Belə seminarlar həkimlər arasında təcrübə mübadiləsinin aparılması baxımından çox əhəmiyyətlidir.

Professor İlya Emets çıxışında bildirib ki, Azərbaycan ilə Ukrayna arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq, bütövlükdə, hər iki ölkə əhalisinin sağlamlığının qorunmasına xidmət edir. O, həkimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsində, bu sahədə təhsil alan tələbələrin nəzəri və təcrübi biliklərinin artırılması istiqamətində keçirilən bu cür tədbirlərin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Sonra İlya Emetsin başçılıq etdiyi heyət naxçıvanlı həmkarları ilə birlikdə 20-dən çox ürək xəstəsi olan uşaqları müayinə edib. Yüksəkixtisaslı mütəxəssislər çalışdıqları sahədə toplanmış təcrübəni bölüşüb, qarşılıqlı fikir mübadiləsi aparıb və yerli mütəxəssisləri maraqlandıran sualları cavablandırıblar.

Uşaq Kardiologiyası və Ürək Cərrahiyyəsi Elmi və Praktik Tibbi Mərkəzinin direktoru Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi tələbələrinə mühazirə keçib. Professor gələcəyin həkim kadrlarına peşə fəaliyyətlərində elmi-tədqiqat işlərinin önəmindən, təcrübi dərslərin əhəmiyyətindən danışıb. O, yeni doğulan uşaqların üzərində aparılan açıq ürək cərrahiyyə metodlarından ətraflı məlumat verib. Hamiləliyin 18-ci həftəsində ürək problemlərinin aradan qaldırılmasının mərkəzin əsas fəaliyyəti olduğunu önə çəkən qonaq burada indiyədək 17 minə qədər əməliyyatın keçirildiyini vurğulayıb. Qeyd edilib ki, aorta klapanlarında çatışmazlıq və qüsurlar mərkəzdə müayinə və müalicə olunur. Professor, hətta bədənin heç bir yerində kəsiklər aparılmadan keçirilən əməliyyatlardan danışaraq ağciyər venasının ürəyə yox, diafraqma altına və qaraciyərə getməsi qüsurunun müayinə və müalicəsində istifadə etdikləri üsullar barədə tələbələrə məlumat verib.

İlya Emets tələbələrin suallarını cavablandırıb, gələcəyin həkimlərinə öz tövsiyələrini çatdırıb.

## İlya Emets: "Naxçıvanda kardiologiya sahəsində yüksəkixtisaslı kadrlar mövcuddur"



*"Muxtar respublikada 17 pasiyenti naxçıvanlı həkimlərlə birlikdə müayinə etdik. Mənim üçün naxçıvanlı kardioloqların peşəkarlıq səviyyəsinin yüksək olmasını görmək həm maraqlı, həm də xoş oldu".*

Bu sözləri "Şərq qapısı" qəzetinə müsahibəsində Naxçıvan səfərində olan Ukrayna Səhiyyə Nazirliyinin Uşaq Kardiologiyası və Ürək Cərrahiyyəsi Elmi və Praktik Tibbi Mərkəzinin direktoru, Ukraynanın Əməkdar həkimi, professor İlya Emets deyib.

Azərbaycana səfəri barədə danışan professor bildirib ki, həmkarlarımızla birlikdə Heydər Əliyev Fondunun dəvəti və Azərbaycan Respublikasının Ukraynadakı Səfirliyinin təşkilatçılığı ilə sentyabrın 20-dən Azərbaycandayıq. Bu, mənim ölkənizə, o cümlədən muxtar respublikaya ilk səfərimdir. Buradakı bütün sahələrdə gördüyüm inkişaf məndə xoş təəssürat yaratdı.

"Naxçıvanda müasir standartlara cavab verən xəstəxanalar və yüksəkixtisaslı həkimlərin olmasına şahidlik etdim. Bu, məni çox sevindirdi", – deyən İlya Emets vurğulayıb ki, Ukrayna Səhiyyə Nazirliyinin Uşaq Kardiologiyası və Ürək Cərrahiyyəsi Elmi və Praktik Tibbi Mərkəzi gələcəkdə Naxçıvan Muxtar Respublikası Kardiologiya Mərkəzi ilə əməkdaşlıq proqramını həyata keçirə bilər. Tanınmış kardioloq muxtar respublikanın füsunkar təbiəti barədə də danışaraq deyib ki, Naxçıvanın təmiz havası, gözəlliyi onu valeh edib.

**Tural AĞAYEV**

## Ərtoğrol Cavidin 100 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib

*AMEA Naxçıvan Bölməsində "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" mövzusunda elmi konfrans keçirilib.*

Tədbir AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının birgə təşkilatçılığı ilə reallaşdırılıb.

Konfransı bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Ərtoğrol Cavidin 100 illik yubileyinin keçirilməsi haqqında" 2019-cu il 18 aprel tarixli Sərəncamını xatırladıb, bu istiqamətdə həyata keçirilən tədbirləri diqqətə çatdırıb.



İsmayıl Hacıyev Hüseyn Cavid nəslinin layiqli davamçısı Ərtoğrol Cavidin həyat yolundan, onun zəngin və parlaq yaradıcılıq fəaliyyətindən də ətraflı bəhs edib. Ərtoğrol Cavidin rəssam, bəstəkar, musiqişünas, tədqiqatçı, dramaturq, tərcüməçi, şairlik fəaliyyətindən söz açan alim bildirib ki, Azərbaycan Dövlət Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə bitirən Ərtoğrol Azərbaycan Dövlət Konservatoriyasında da oxuyub, görkəmli bəstəkar Üzeyir Hacıbəyovun tələbəsi olub. O, unudulmaqda olan 200-dən çox el nəğmələrini, folkloru, xalq musiqisi və rəqslərini toplayaraq nota köçürüb.

Ümummilli lider Heydər Əliyevin Cavidlər irsinə və ailəsinə göstərdiyi qayğıdan da danışan akademik bunun, bütövlükdə, Azərbaycan ədəbiyyatına verilən dəyər olduğunu bildirib. Vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı müvafiq sərəncam da Cavidlər ailəsinə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Konfransda bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, Naxçıvan Dövlət Universitetinin professoru, filologiya üzrə elmlər doktoru Hüseyn Həşimli, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilov, "Naxçıvan" Universitetinin Pedaqoji fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyeva, Naxçıvan Müəllimlər İnstitutunun dosenti, filologiya üzrə fəlsəfə doktoru Həsənalı Eyvazlı müxtəlif mövzularda elmi məruzələrlə çıxış ediblər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Yenə yada düşür torpağın əlifbası, çöl əlifbası…

*Bu günlər yurdumuz yayın hələ də havanın sərinləşməsinə təslim olmayan şux qaməti, yaşıl rəngi ilə payızı qarşılayıb salamladı. Ağacların ağırlıqdan əyilib çəməni oxşayan budaqlarının çeşidli bol meyvəsi, bağrını yarıb zər axtaran insanlara torpağın yığmaqla bitməyən məhsul ərməğanı yenə də zaman-zaman zəhmətin yaratdığı torpağın əlifbasını yada salır, dərələrin, düzlərin, çöllərin əlifbasından söhbət açır…*



“A” ilə – ata ilə, ana ilə başlayan əlifbamızın sıralanmasında nə əvvəldə, nə də sonda yox, ortalarda ilk səslənmədə gözlərimiz önünə torpağı gətirən bir hərfimiz də var – “T”. Sanki tən ortada dayanmaqla torpaq mənzilli insanların dünyaya gələninə də, gedəninə də sevgi paylayan bu hərf yaranışından insanları özünə sevdalı edib. Üzərində dünyaya gəlib, qoynunda uyuduğumuz, ata-babalarımızdan alın təri alıb qara rəngini gözoxşayan, könül bəzəyən min bir çalara çevirən torpaq. Zaman-zaman qara günün ağ rəngi olan torpaq. Ucsuz-bucaqsız dünyanı üzərində qurub-yaradan, evsizi evli, çörəksizi çörəkli, işsizi işli edən torpaq.

Torpaq nəyi sevir? İnsanları, onların əllərini, nəfəsini. Sükutu yox, səsi-küyü sevir. Sinəsinə şumun, kotanın, traktorların, kombaynların sığal çəkməsini, “əzilməsini” sevir ki, onu əzəni əzizləsin. Zəhmətini çəkənin mükafatını versin. Elə ona görə də hər zaman zəhmətin əlifbası olub torpaq. Bu əlifbanı barmaqları ələktək torpağı ələyən əllər sıralayıb. O əlifbanı hər bir kəndli atanın yanındakı cütçü qardaşına-



balaca oğluna torpağı çölbəçöl, dərəbədərə, çayları bənd-bənd, bərə-bərə, çiyni ot şələli, odun şələli, uçurumu, yoxuşu, aşırımda tufanı, gədikdə qarı, selabda yağışı oxutduran zəhmətkeş insanların simasında böyük şairimiz Məmməd Araz hərf-hərf qələmə alıb. Şair hər birimizin atasının kitabı olan poemada bir xalqın torpaq sevgisini cahana bəyan edib, böyük bir elin ağsaqqal, zəhmətkeş və nəsihətkeşlərinin ümumi obrazını atası ilə “Atamın kitabı”nda sətirləyib.

Bu əlifba məktəbdə say çöpləri ilə hesablamaqla başlayıb “A” dan “Z”yə hərfləri bir-bir öyrəndiyimiz əlifbaya çox bənzəyir. Lakin torpağın əlifbası yayın-yazın günəşində, payızın yağışında-sazağında zəhmət zindanında döyüb bərkidəndən sonra “məktəbə” göndərir ataların övladlarını. Torpağın əlifbasında say çöpləri ilə saymaq külüng, baltadır. Qolunu çırmayıb döşdəki yemişan kolunu boğazlayan, sonra da on dənə düyünsüz çubuğu, beş cüt də samlığı ütməyi bacaran hərfləri öyrənməyə başlaya bilər. Bu əlifbanın “A”sı at, “B”si bal, baldırğan, “D”si dəryaz, “O”su oraq, “C”si cütdür. Müasir dövrümüzdə atı avtomobillər, dəryazı, orağı, cütü traktor, kombayn, otbiçən, taxılbiçən maşınlar əvəz etsə də, insanlar yenə də həmin insanlardır. Bu gözəl diyarımızın ölkəmizdə əl-əl gəzən bar-bərəkətinin, bazarlarımızın bolluğu, süfrələrimizin yaraşığı olan nemətlərinin arxasında aylarla qızmar günəşin altında çöhrəsi mis rənginə çalan, alın tərini yağış, arx sularına qatıb torpağa hopduran, yazın-payızın sazağının əllərinə “dırmıq çəkdiyi” insanların zəhməti dayanır. Bu insanlar torpağın əlifbasını sıralayan o dağ qürurlu, barmaqları qabar-qabar, ovucları cadar-cadar olan ataların övladlarıdır. O atalar övladlarına çölün əlifbasını öyrətdikdən sonra onları gözlərində sevinc yaşları ilə məktəbə yola salanda deyirdilər:

*Dedi: gəl öpüşək, a cütçü qardaş*
*Daha düş-söylədi-boyunduruqdan!*
*Dedi: çıxma sözdən,*
*Çıxma buyruqdan!*
*Məktəbə gedirsən,*
*Get, işıq oğlum!*
*Sabir baban demiş:*
*yaraşıq oğlum!*

Torpağın əlifbası ilə qanına, ruhuna sulardan saflıq, təbiətdən halallıq, dağlardan əzm hopan oğullarınsa heç çölçü ayaqları düşməzdi heydən:

*O gündən balaca qırmızı heybəm*
*Bir gözündə kitab, birində çörək*
*Çiynimdən düşmədi yollandım çölə, –*

deyərək, torpaqla məktəb-elm, ziyalılıq sevgisini paylaşdılar.

İllər ötür, lakin ilk əlifbamız torpağın əlifbası olaraq qalır. Torpağın əlifbasını öyrənə bilməyən zəhmətlə ucala, öz mövqeyinə çata bilmədi. Öyrənənlərsə müəllim, həkim, mühəndis, alim də oldular. Övladlarına torpağın əlifbası ilə yanaşı,



dilini də öyrətdilər. Beləcə, torpaq sevgisi dünəndən bu günə gəlib çıxa bildi. 70 illik sovet rejiminin kəndlinin əlindən torpaqlarını alıb kolxoz-sovxozlara verdiyi dövrdə torpaqsız yaşaya bilməyən insanlar onu başqaları üçün əkib-becərməyə belə, razı oldular. “Ta ki torpaq olsun, ta ki ondan ayrı qalmayaq”, – dedilər. Zəhmətin bəhrəsinin çoxu özlərinə qalmasa da, mənəvi cəhətdən qazancları böyük oldu o insanların. Bu qazanc torpaqdan ayrı düşməmək, ona bağlılıq idi. Həmin bağlılıq ümummilli liderimizin həyata keçirdiyi islahatla torpaqları özlərinə qaytarılan insanların, həqiqətən də, bu ata-baba ərməğanına münasibətlərində özünü göstərdi. Torpağa bağlılıq muxtar respublikamızın nankor qonşularımız tərəfindən blokadaya salındığı ilk illərdə işsizlik ucbatından qonşu ölkələrə gedənləri geri qaytardı.

Subsidiyaların verilməsi, torpaqların vergidən azad olunması, kənd təsərrüfatı məhsullarının sərbəst satışı üçün şəraitin yaradılması, güzəştli şərtlərlə kreditlərin və texnikaların verilməsi, aqrolizinq xidməti göstərilməsi, kənd təsərrüfatı



məhsullarının satış yarmarkalarının təşkili və sərbəst ixracı onları torpaq mülkiyyətçisinə çevirdi. Bütün bunlar isə illərdir, diyarımızda aqrar sahənin inkişafına səbəb olub. Artıq torpaq mülkiyyətçiləri fermer, ailə təsərrüfatları yaradır, zəhmətləri ilə torpağın ən gözəl gəlir mənbəyi olduğunu sübut edirlər. Bazarlarımıza çıxarılan, keçirilən ənənəvi festivallarda nümayiş olunan, satılan keyfiyyətli yerli məhsullar torpağın əlifbasını ata-babalarından əxz edənlərin zəhmət zəfəridir.

50, 100 il bundan sonra da nə qədər ki yenə də ata-babalar övladlarına heybəsinin bir gözündə kitab, birində çörək çölə gəlməyi, onlara kömәyi tәlqin edəcəklərsə, zəhmətin yaratdığı torpağın əlifbası əmək adamlarının hayına-harayına gələcək. Çünki torpağın əlifbası torpağa çağırışdır. Yaxşı dolanışığa, əməklə, zəhmətlə ucalığa çağırışdır.

✍ **Mətanət MƏMMƏDOVA**

***Müdriklərin belə bir kəlamı var: Kitablar qocalıqda ən yaxşı dost, cavanlıqda ən yaxşı rəhbərdir. Bəli, biz kitablarla öyrənir, kitablarla öyrədirik. Bu yazıda sizə maraqlı nəşr nümunələri olan miniatür kitablardan bəhs edəcəyik.***

## Naxçıvanın ilk miniatür kitabı





Qədim zamanlarda texniki proseslər kitab həcminin həddindən artıq böyük, nüsxə sayının isə çox az olmasını şərtləndirirdi. Zamanla elmin və texnikanın inkişafı kitab nəşrində işin sürət və keyfiyyətini artırdı, kitabların ölçüləri dəfələrlə kiçildildi. Günümüzdə isə bir saatda yüzlərlə nüsxə kitab nəşr etdirməyə imkan verən texnologiyalar mövcuddur.

Qədimdən bəri inkişafda olan kitabların miniatür formaları da bir çox cəhətinə görə diqqəti cəlb edir. Miniatür formanın yaranması nəticəsində insanlar dəyər verdikləri əsərləri özləri ilə rahat daşımaq imkanı əldə etdilər. Beləliklə, miniatür kitablardan daha çox istifadə olunmağa başlandı. Günümüzdə isə belə kitablar daha çox şəxsi və dövlət kitabxanalarını, muzeyləri bəzəyir.

Maraqlı bir faktı da qeyd edək ki, Bakı şəhərində 2002-ci ildə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Zərifə Salahovanın kolleksiyası əsasında dünyada ilk olan miniatür kitab muzeyi fəaliyyət göstərməyə başlayıb. Zərifə xanımın şəxsi təşəbbüsü əsasında yaradılan muzey gərgin əmək nəticəsində zənginləşdi və dünyanın ən böyük miniatür kitab kolleksiyasına çevrildi. Nəticədə, bu kitabxananın adı “Ginnesin Rekordlar Kitabı”na yazıldı.

Naxçıvanda da miniatür kitablardan ibarət maraqlı kolleksiyanın şahidi ola bilərsiniz. Əməkdar mədəniyyət işçisi Zərifə Salahovanın dəstəyi ilə 2014-cü ilin 18 dekabrında Naxçıvanda Miniatür kitab muzeyinin filialı fəaliyyətə başladı. Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayının ikinci mərtəbəsində fəaliyyət göstərən Naxçıvan Dövlət Rəsm Qalereyasında 1025 kitab nümayiş etdirilir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan saraya yolunuz düşsə, buradakı miniatür kitablarla da tanış ola bilərsiniz. Həmin vaxt sizin daha çox marağınızı çəkəcək amillərdən biri 31 ölkənin bayrağı olacaq. Bunun rəmzi mənası isə odur ki, muzeydə 31 ölkədən gətirilən kitablar nümayiş olunur. Vitrinlərə yaxınlaşdıqda çeşidli, rəngarəng, müxtəlif mövzularla bağlı kitablara rast gələ, dahi Nizami, ustad Füzuli, bəşər carçısı Nəsimi, maarif fədaisi Mirzə Fətəli Axundov kimi Azərbaycan ədəbiyyatının klassiklərinin kitablarını görə bilərsiniz. Həmçinin “Kitabi-Dədə Qorqud”, “Qurani-Kərim”, “Koroğlu” kimi dəyərli kitablar da muzeyin diqqətçəkən inciləri sırasındadır.

Təbii ki, müxtəlif xalqlara məxsus kitabların nümayiş etdirilməsi həm də turistlərin diqqətini cəlb edir. Muxtar respublikaya səfər edən xarici turistlər öz ölkələri ilə bağlı vitrinlərə baxır, öz dillərində olan rəngarəng miniatür kitablara böyük maraq göstərirlər.

Şəhərimizdə fəaliyyət göstərən bu maraqlı muzeyin ekspozisiyası bundan sonra daha da zənginləşəcək. Buna isə “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində miniatür kitabların nəşrinə başlanması əsas verir. Xatırlatmaq yerinə düşər ki, dünya standartlarına cavab verən müasir çap texnologiyalarının quraşdırıldığı nəşriyyatda müxtəlif poliqrafik dizaynda, nəfis tərtibatda və keyfiyyətdə qəzet, jurnal, kitab və digər çap məhsullarının nəşri mümkündür. Burada mövcud olan imkanlar, həmçinin istənilən ölçüdə, o cümlədən miniatür kitabların nəşr olunmasına şərait yaradır.

Bu yaxınlarda “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən muxtar respublikada ilk dəfə olaraq miniatür kitab nəşr olunub. Filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Elxan Yurdoğlunun Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyinə həsr olunmuş “Naxçıvan dastanı” poeması miniatür kitab formatında hazırlanıb. 9x7 santimetr ölçüdə olan kitab 64 səhifədən ibarətdir. Yaxın günlərdə həmin miniatür kitabın təqdimatı olub.

“Naxçıvan dastanı” poeması muxtar respublikada çap olunan ilk miniatür kitab olaraq qədim diyarımıza sevginin, tükənməz məhəbbətin bariz ifadəsidir. Yaşı minilliklərlə ölçülən doğma yurdumuzun hər daşı, hər qayası poemada övlad sevgisi ilə tərənnüm olunur. Şairin yurd, Vətən sevgisi poemanın hər bir sətrində özünü bariz şəkildə göstərir. Naxçıvanın keçmişi qürurla xatırlandığı kimi, bugünkü inkişafı da poetik dillə vəsf olunur. Kitabda qədim diyarın 5 minillik tarixə malik olan şəhər mədəniyyəti poetik şəkildə təsvir edilir. Poemada Nuh tufanı və tufandan sonrakı insanların bu qədim diyarda məskən salıb yaşamasından, Nuhun nişanəsi olan Gəmiqayadan, “Əshabi-Kəhf” əfsanəsindən, Naxçıvanın Duzdağ möcüzəsindən, Araz yanğısından, muxtar respublikanın yetirdiyi görkəmli şəxsiyyətlərdən bəhs olunur.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin əməkdaşı, miniatür kitabın tərtibatçısı Esmira Heydərova ilə söhbət zamanı dedi ki, ənənəvi kitab formatından fərqli olaraq kiçik həcmdə kitabların hazırlanması daha çox diqqət, səbir və zəhmət tələb edir. Miniatür kitablar əl əməyi və zərif iş nəticəsində ərsəyə gəlir. Kitabın ərsəyə gəlməsində bütün kollektivin əməyi var. Buradakı texnoloji avadanlıqlar işin sürətini və keyfiyyətini xeyli artırıb. Bu gün nəşriyyatımızda kitab çapı sahəsində istənilən sifarişləri qəbul və icra etmək mümkündür.

Esmira xanım qeyd etdi ki, miniatür kitabın çapı üçün iş prosesini Bakı şəhərindəki mətbəədə öyrənmişəm, bu sahədə təcrübəni Əməkdar mədəniyyət işçisi Zərifə Salahovadan mənimsəmişəm. Təcrübəmi həmkarlarıma da öyrədəcək, nəşriyyatda bu sahədə üzərimə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacağam. Bundan sonra gələcək sifarişlər əsasında miniatür kitabların nəşri həyata keçiriləcəkdir. Kollektivimiz üçün qürurvericidir ki, bizim nəşriyyatın çap məhsulu Miniatür Kitab Muzeyində öz yerini alacaq.

“Naxçıvan dastanı” miniatür kitabının nəşri muxtar respublikada kitab çapına daha bir töhfə, yaradıcı adamlara əlavə stimuldur. Şair və yazıçılarımız, alimlərimiz digər nəşriyyatlara müraciət etmədən, əlavə vaxt və xərc sərf etmədən “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində əsərlərini miniatür şəkildə çap etdirə biləcəklər. Çünki miniatür kitablar həm də yaxınlarımıza, sevdiklərimizə gözəl və mənalı hədiyyə ola bilər.

✍ **Gülcamal TAHİROVA**

***İtmişdir***

Əhmədli Ayaz Fikrət oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş 20170407 nömrəli tələbə bileti itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 644